**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TÜRKİYƏ-RUSİYA SİYASİ MÜNASİBƏTLƏRİ (1991-2013-CÜ İLLƏR)

İxtisas: 5502.01 – Ümumi tarix

Elm sahəsi: – Tarix

**İddiaçı: Elgün Söhbət oğlu Qəhrəmanov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinın Asiya və Afrika ölkələri tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix üzrə elmlər doktoru, professor
**Sani Tofiq oğlu Hacıyev**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü,
tarix üzrə elmlər doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**
tarix üzrə fəlsəfə doktoru, dosent
**Samirə Əbülfət qızı İmanova**
tarix üzrə fəlsəfə doktoru,
**Samir Fazil oğlu Baxşəliyev**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:**

_____________ tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

**Dissertasiya şurasının elmi katibi:**

_____________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

**Elmi seminarın sədri:**

_____________ tarix üzrə elmlər doktoru
**Lalə Cavid qızı Hüseynova**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dissertasiya işinin mövzusu müasir dövrün ən aktual problemlərindən birinə həsr olunmuşdur. Dünyanın geosiyasət tarixində uzun illər boyu tədqiqatçıların, siyasi və dövlət xadimlərinin diqqətini cəlb etmiş çox vacib elmi problemlərindən biri olan Türkiyə-Rusiya siyasi münasibətləri, günümüzdə də öz aktuallığını və siyasi əhəmiyyətini saxlamaqdadır. Dünya siyasətinin ayrılmaz bir parçasına çevrilən bu ikili münasibətlər, bir çox tarixçi və elm adamlarının tədqiqat obyektinə çevrilmişdir. Təbii ki, Türkiyə-Rusiya münasibətlərinin siyasi köklərini araşdırmaq baxımından dissertasiya işinin əhəmiyyəti böyükdür.

Türkiyə-Rusiya münasibətlərinin araşdırılmasının digər bir əhəmiyyəti ondan ibarətdir ki, bu iki tərəfli münasibətlər yalnız öz dövlətlərinə təsir etməklə qalmamış, eyni zamanda ətraf regionlara da təsir etmişdir. Elə dövlətlər var ki, onların münasibətlərində yaranan gərginlik, yalnız bu iki dövlətə təsir edir, lakin Türkiyə və Rusiya kimi böyük dövlətlərin münasibətləri korlanarsa, bu eyni zamanda ətrafdakı region dövlətlərinə birbaşa və ya dolayı yolla olsa da təsir göstərəcəkdir.

İlk növbədə, Türkiyə-Rusiya siyasi münasibətlərinin düzgün siyasi təhlilini aparmaq üçün, bu əlaqələrin tarixini araşdırmaq mühüm amillərdən biri sayılmalıdır.

Avrasiyada yaranmış bu dövlətlərin ümumi ortaq nöqtələri və fərqli xarakterlərinə nəzər salaq. Türklər tarix boyu daha çox cənub və qərbə doğru genişlənərkən, ruslar isə şimal və şərqə doğru ərazilərini genişləndirmişdilər. Bu fərqlilik iki imperiya arasındakı bitib-tükənməyən qarşıdurmaların ola biləcək başlıca nüvəsini öz içində əhatə etməkdə idi. Necə ki, Osmanlı dövləti müharibələrini ruslara qohum olan qərbdəki slavyan xalqlarına qarşı apararkən, Rusiya isə Osmanlı türkləri ilə eyni kökdən olan Kazan, Həştərxan, Sibir, Yakutiya kimi regionlardakı türk və müsəlman xalqlarına qarşı müharibələr aparmışdı. Bu nöqtədə Avrasiya coğrafiyasında iki

zidd imperatorluq, dolayısıyla, iki fərqli inteqrasiya modeli ortaya çıxmışdır.

Osmanlı dövlətinin Rusiya ilə rəsmi əlaqələri 1492-ci ildə III İvanın (1462-1505) II Bəyazidə (1481-1512) göndərdiyi məktubla başlayır. Qeyd etmək lazımdır ki, bütün tarixi ədəbiyyatlarda rus-türk münasibətlərinin başlanğıcı məhz bu ildən götürülür, lakin bu münasibətlər tamamilə iqtisadi xarakter daşımışdır. Maraqlıdır ki, bu tarixi fakt Osmanlı tarixşünaslığında birmənalı qarşılanmır. 1497-ci ildə başlanmış ilk rəsmi münasibətlər–"Krım xanlarının səhv siyasətləri" kimi də qiymətləndirilir [1].

Tarixin sonrakı səhifələrində türk-rus münasibətləri ümumilikdə Türkiyə tərəfinin əleyhinə inkişaf edən müharibələr tarixidir. Lakin müharibələr və soyuq münasibətlərlə yanaşı, bu iki dövlətin əlaqələrində yaxınlaşma dövrləri də olmuşdur. I Yaxınlaşma dövrü (1798-1805) - Napoleona qarşı, hərbi ittifaq, rusların Boğazlardan keçməsi və Osmanlıya hərbi yardım etməsi, II Yaxınlaşma dövrü (1833-1838) - I Nikolayla II Mahmud arasında Misir valisi Məhəmməd Əli Paşaya qarşı Hünkar- İskələsi adlı hərbi əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Və ilk dəfə olaraq ortaq müdafiə əsasları qurulmuşdur. III Yaxınlaşma dövrü (1920-1935)-1920-ci ilin aprel ayında Mustafa Kamalın Leninə məşhur məktubu və nəticəsində yenə də Rusiyanın Türkiyəyə hərbi yardım etməsi bu yaxınlaşmanın əsas prinsipi oldu. IV Yaxınlaşma (2000-2015) - Bu yaxınlaşmanın başlanğıcında da ilk növbədə Rusiya tərəfindən hərbi-texniki əməkdaşlıq təklif olunurdu. 2000-ci ilin oktyabr ayında Rusiyanın baş naziri M.Kasyanovun səfərindən bunu açıq-aydın görə bilərik. O cümlədən, 2002-ci il yanvar ayının 14-18-də RF-nın Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Anatoliy Kvaşninin Ankara səfəri çərçivəsində Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyn Kıvrıkoğlu ilə imzaladığı "Hərbi Sahədə Əməkdaşlıq Çərçivəsində Hərbi Heyətinin Təlim Əməkdaşlıq Müqaviləsi"-i münasibətləri

---

[1] Saray, M. Türk-rus münasibetlerinin Bir Analizi / M.Saray. – İstanbul: Milli Eğitim Basımevi, – 1998. – s.21.

hərbi sahələrə daşımışdır[2]. Diqqət etsək yuxarıda qeyd olunan bu yaxınlaşma dövrlərinin bəzi ortaq oxşar xüsusiyyətləri ön plana çıxırdı. Qeyd olunan yaxınlaşmaların əvvəlində və sonrasında müharibələr, qarşıdurmalar və soyuq münasibətlər olduğunu görə bilərik. Bu da yaxınlaşma dövrlərində qurulan əlaqələrin kövrək olduğunu göstərir. O cümlədən, ittifaqların tamamilə praqmatik olması və yaxınlaşma dövrünün 5-15 il arasında, qısa müddət ərzində davam etməsi də diqqətçəkən məqamlardandır. Bu yaxınlaşma dövrlərinin ilk ikisində yalnız hərbi səviyyədə təmasların qurulması, digər iki dövr yaxınlaşmasında isə hərbi əlaqələrlə yanaşı, iqtisadi və mədəni münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Ancaq bütün bunlar münasibətlərin yenidən kəskin bir şəkildə soymasının və tərəflərin uzun illər qarşı qütblərdə olmasının qarşısını ala bilməmişdir. Dörd dövr yaxınlaşmasının digər bir ortaq xüsusiyyəti, beynəlxalq və regional sistemdə baş verən dəyişikliklərə bir cavab reaksiyası şəklində olması idi. Son olaraq, bu yaxınlaşmaların hər dövründə də ilkin olaraq hərbi əməkdaşlığın ön plana çıxmasıdır.

Dissertasiya işi yazılarkən müxtəlif mənbə və ədəbiyyatlardan istifadə olunmuşdur. Türkiyə-Rusiya siyasi münasibətləri (1991-2013-cü illər) mövzusu, Azərbaycan tarixşünaslığında indiyə qədər xüsusi sahə olaraq araşdırılmamışdır. Yalnız dövrü mətbuatda bu dövrlə bağlı bəzi publisist məqalələr çap edilmişdir. Rusiyalı tədqiqatçıların böyük əksəriyyətinin problemlə bağlı öz əsərlərində dövlət siyasətindən çıxış edərək, birtərəfli və ya məsələlərə qeyri-obyektiv yanaşmalarına daha çox rast gəlinir. Qərb, xüsusilə amerikalı tarixçilərin əsərlərində isə, Türkiyə-Rusiya münasibətlərinin keçici, müvəqqəti bir dövr içərisində olduğu qeyd edilir. Və əsasən də Atlantikçi ideoloji nəzəriyyədən çıxış edərək, problemi çox vaxt təhrif edirlər. Türkiyə tarixşünaslığında Türkiyə-Rusiya münasibləri ilə bağlı müxtəlif yanaşmalar və tendensiyalar mövcuddur. Bəzi türk tarixçiləri tarixdə baş vermiş türk-rus

---

[2] Türk Dış Politikası (Kurtuluş Savaşından Bugüne. Olgular, Belgeler, Yorumlar) / red. Baskın Oran cilt III: 2001-2012 / – İstanbul: İletişim Yayıncılık, – 2013, – s.536.

müharibələri və qarşıdurmaları çərçivəsində bu münasibətləri uzunmüddətli bir dövr içərisində, əməkdaşlığın mümkün olmadığını qeyd edirlər. Digər tədqiqatçı alimlər isə əksinə, Almaniya-Rusiya, Almaniya-Fransa əməkdaşlığını nümunə gətirərək, keçmişdə olan gərginliklərin unudulması ilə, inamlı və etibarlı bir əməkdaşlığın qurulmasının mümkün olduğunu qeyd edirlər. Mövzu ilə bağlı tədqiqat işləri əsasən rus, türk, ingilis və Azərbaycan dillərində aparılmışdır. Azərbaycan tarixşünaslığında bu mövzuyla bağlı hadisələrə çox qısa şəkildə yer verilmiş, yalnız ad çəkilməklə keçilmişdir. Musa Qasımlının[3] monoqrafiyasında SSRİ-nin dağılmasından sonra Türkiyə-Rusiya münasibətlərinin gələcəyi ilə bağlı məlumatlara yer verilmişdir. Ağayev İqbalın Türkiyə və Rusiya arasında enerji sahəsində əməkdaşlıq haqqında yazılan elmi məqaləsində[4], bu münasibətlərin qurulmasında iqtisadi faktorun əhəmiyyəti qeyd edilmişdir.

Bu sahədə türk tədqiqatçıları tərəfindən bir sıra əsərlər ərsiyə gətirilmişdir. Fatih Özbay, O.Kolobov, A.Kornilov [5] tərəfindən birgə nəşr olunan monoqrafiya bu münasibətlərin ən vacib məqamlarını yaxından izləmək üçün ən dəyərli əsərlərdən biri hesab olunur. Bu kitab, həm rus, həm də türk müəlliflərinin iştirakı ilə hazırlanan müştərək bir etibarlı fundamental əsər hesab olunur. Lakin qeyd olunan müəlliflər Türkiyə-Rusiya əlaqələrindəki əməkdaşlıq sahələrini daha çox regional kontektsdə vermişlər. Bu dövrdə qlobal

---

[3] Qasımlı, M.C. SSRİ-Türkiyə əlaqələri (Türkiyədə 1980-ci il çevrilişindən SSRİ-nin dağılmasına qədər) / M.C.Qasımlı. – İstanbul: Kaknüs yayınları, – 2012. – 463 s.

[4] Ağayev, İ. Türkiyə-Rusiya iqtisadi-ticari münasibətlərində qaz sahəsində əməkdaşlığın yeri //– Bakı: Tarix və onun problemləri, – 2016. № 3, – s.177-185.

[5] Kolobov, O. Çağdaş Türk-Rus ilişkileri: Sorunlar ve İşbirliği Alanları (1992-2005)/ O.Kolobov, Kornilov A, Özbay F. – İstanbul: TASAM Yayınları, – 2005, Haziran. – 339 s.; Колобов, О.А. Современные турецко-российские отношения: проблемы сотрудничества и перспективы развития / О.А.Колобов, А.А.Корнилов, Ф.Озбай. – Нижний Новгород-Стамбул: ИСИ ННГУ, – 2004. – 265 с.

dünyada baş vermiş dəyişikliklərin münasibətlərə təsiri ilə bağlı faktlar məhdud şəkildədir. Bu səpkidə digər bir əsər Fatih Özbayın Türkiyə-Rusiya əlaqələrinin 1992-2010-cu illərini tədqiq etdiyi iri həcmli məqaləsidir[6]. Fatih Özbayın hazırladığı digər bir siyasi hesabat[7], Türkiyə-Rusiya münasibətlərinə kölgə salan bəzi sirli məqamları üzə çıxarmağa kömək edirdi. Burda erməni diaspora və lobbiçilik fəaliyyətləri geniş işıqlandırılmışdır.

Bu əlaqələrin dolğun şəkildə araşdırılması üçün, həm Türkiyənin, həm də Rusiyanın bu dövrlərini ayrı-ayrılıqda xarici siyasət kursunu analiz və tədqiq etmək lazımdır. Bu baxımdan Türkiyənin xarici siyasətinin istiqamətlərinin araşdırılması və tədqiqi üçün, Baskın Oranın redaktorluğu ilə 2013-cü ildə çap edilmiş elmi məqalələr toplusu olduqca əhəmiyyətlidir[8]. Bu səpkidə yazılmış digər bir əsər, Haydar Çakmakın redaktorluğu ilə 2012-ci ildə nəşr edilmiş Türkiyənin xarici siyasətinin ən vacib problemlərinə həsr olunmuş tədqiqat işidir[9].

Burhanettin Duran, Kemal İnat, Mesut Özcan, Muhittin Ataman, Ali Balcının elmi redaktorluğu ilə SETA-nın nəşri olan "Türk Xarici Siyasətinin İlliyi" adlı hesabat xarakterli məqalələr toplusu problemin araşdırılması baxımından olduqca əhəmiyyətlidir[10].Yalnız

---

[6] Özbay, F. Soğuk Savaş sonrası Türkiye-Rusya ilişkileri: 1992-2010 // Bilgi Strateji, – Bahar, – 2011. c.3, sayı:4, – s.37-81.

[7] Özbay, F. Ermeni Diasporası ve Türkiye-Rusya ilişkileri // – İstanbul: TASAM Yayınları, – Stratejik Rapor, – 2005. №5, nisan. – s.2-15.

[8] Türk Dış Politikası (Kurtuluş Savaşından Bugüne. Olgular, Belgeler, Yorumlar) / red. Baskın Oran cilt III: 2001-2012, / İstanbul: İletişim Yayıncılık, – 2013. – 885 s.

[9] Türk Dış Politikası 1919-2012/ red. Haydar Çakmak, 2.Baskı /İstanbul: Barış Platin Kitap DŞTİ, – 2012. – 1244 s.

[10] Türk Dış Politikası Yıllığı 2009 / Burhanettin Duran, Kemal İnat, Muhittin Ataman, // İstanbul, SETA Yayınları, – 2010. – 1.Baskı, – 408 s.; Türk Dış Politikası Yıllığı 2010 / Burhanettin Duran, Kemal İnat, Mesut Özcan // İstanbul: SETA yayınları, – 2011. – 455 s.; Türk Dış Politikası Yıllığı 2011 / Burhanettin Duran, Kemal İnat, Ali Resul Usul // İstanbul: SETA yayınları, – 2012. – 389 s.; Türk Dış Politikası Yıllığı 2013 / Burhanettin Duran, Kemal İnat, Ali Balcı // İstanbul: SETA yayınları, – 2014. – 1.Baskı, – 473 s.

bu toplunun mənfi cəhətlərindən biri Türkiyə-Rusiya münasibətlərinə müstəqil şəkildə deyil, Transatlantik İttifaqı ilə əlaqələri çərçivəsində yanaşılması idi.

Türkiyənin keçmiş İqtisadi İnkişaf naziri olan Zafer Çağlayan öz əsərində[11] Türkiyə-Rusiya siyasi münasibətlərinin lokomotivi olan iqtisadi əlaqələri ön plana çəkmişdir. Bu əsərin çatışmayan cəhətlərindən biri Türkiyə-Rusiya siyasi münasibətlərinə iqtisadi böhranın təsirlərini yalnız Türkiyə maraqları çərçivəsindən qiymətləndirilmiş olması və bəzi subyektiv məsələləri önə çıxartması idi.

Ərhan Böyükakıncı, Eyüp Bacanlı və Gülten Kazgan, kimi tədqiqatçı alimlər, bu əlaqələrin gələcəyi və onun çoxşaxəli şəkildə inkişafı ilə bağlı elmi-tədqiqat işləri aparmışlar. Ərhan Böyükakıncı və Eyüp Bacanlının əsərində[12] Rusiya və Türkiyə münasibətlərinin inkişafı, yalnız onların keçmişlərində olan qarşıdurmaları unutmaqla və inam üzərində quracaqları möhkəm əlaqələr sayəsində təmin edilə bilməsi qeyd olunur. Gülten Kazgan və Natalya Ulçenko[13] tədqiqatlarında bu dövr münasibətlərini siyasi, iqtisadi və mədəni cəhətdən müqayisə edilməsini qeyd etmişdir. Suat Kınıklıoğlu[14], Rusiya Fedrasiyasının baş naziri olmuş Mixayıl Kasyanovun 2000-ci ilin oktyabr ayında rəsmi səfərini, Türkiyə-Rusiya münasibətlərində yeni dövrün başlanğıcı kimi dəyərləndirirdi.

---

[11] Çağlayan, Z. Rusya`dakı Ekonomik Kriz ve Türkiyedeki Etkileri Ankara / Z.Çağlayan. – Ankara: Ankara Sanayi Odası Yayını, – 1998. №44, – 68 s.
[12] Türkiye ile İlişkiler / E.Böyükakıncı, E.Bacanlı. – Ankara: Atatürk Kültür Merkezi, – 2012. – 804 s.; Böyükakıncı, E. Vladimir Putin dönemi Rusyasının Dış Politika Söylemleri/ E.Böyükakıncı. – Ankara: Phoenix yayınevi, – 2004. – 312 s.
[13] Gülten, K. Dünden Bugüne. Türkiye ve Rusya politik, ekonomik ve kültürel ilişkileri / K.Gülten, N.Ulçenko. – İstanbul: İstanbul Bilgi Univerisitesi Yayınları, – 2003. Kasım, – 304 s.
[14] Kınıklıoğlu, S. Türk-Rus ilişkileri: Kasyanov ziyaretinin anatomisi // Avrasya dosyası. – Rusya Özel, –2001, kış. – s.155-164.

ERUSAM-ın Rusya-Qafqaz Araştırmaları Mərkəzinin Türkiyə-Rusiya əlaqələrinin tədqiqatçı alimi, Tekin Aycan Taşçının[15] araşdırma xarakterli əsərindən istifadə edilməsi əhəmiyyətlidir. Türkiyə-Rusiya əlaqələrində Avrasiyaçılıq siyasi nəzəriyyəsinin rolu və onun siyasi analizi haqqında öz tədqiqat əsərlərində yer verən alimlərdən Fatih Akgül[16], Mehmet Perinçek[17], Ömer Göksel İşyarı[18] göstərmək mümkündür. Mehmet Perinçekin tədqiqat əsərinin digər tədqiqat əsərlərindən fərqləndirici xüsusiyyətlərindən biri, onun əsərində Avrasiyaçılıq siyasi nəzəriyyəsinin Türkiyə ordusuna nüfuz etməsi ilə bağlı fikirlərə daha çox rast gəlinməsi idi.

Vladimir Putinin Qara dəniz və Xəzər dəniz hövzələrindəki siyasətinin analizi və bunu Türkiyə ilə əlaqələrində məharətlə istifadə etməsi haqqında məsələlərə USAK-ın (Beynəlxalq Strateji Araştırma Qurluşu) Rusiyaşünas alimi olan Kərim Has , öz tədqiqat əsərlərində geniş yer vermişdir. Bundan başqa müəllifin həm rus həm də türk dilinə çap olunan elmi məqalələrini bu münasibətləri araşdırılmasında çox əhəmiyyətli material hesab etmək olar [19].

---

[15] Tekin, T. Türkiye-Rusya ilişkilerinde Üst Düzeyde İşbirliği Konseyi // ERUSAM, Rusya-Kafkasya Araştırmaları, – 2014. – s.4-17.

[16] Akgün, M., Türkiye-Rusya ilişkilerindeki yapısal sorunlar ve çözüm önerileri/ M.Akgün, T.Aydın // – İstanbul: – Yayın No. TÜSİAD-T 99-264, – 1999, haziran, –252 s.

[17] Perinçek, M. Avrasyacılık. Türkiyedeki Teori ve Pratiği / M.Perinçek. – İstanbul: Kaynak yayınları, – 2016. – 285 s.

[18] Ömer, G.İ. Avrasyada Devletlerin şekilleniş, Yükseliş ve Düşüş sürecleri: Türk ver rus örnekleri. //Ankara: USAK dergisi, – 2008. c.3, sayı:6, – s.104-136.

[19] Хас, К. Эволюция и трансформация энергетической политики Турции и России в Черноморско-Каспийском бассейне // Актуальные проблемы гуманитарных наук в XXI веке. – Москва: МАКС Пресс, – 2011, – 340 с.; Хас, К. Российский фактор в энергетической политике Турции на Южном Кавказе // Актуальные проблемы гуманитарных наук в XXI веке, – Москва: МАКС Пресс, – с.75-83.; Хас, К. Перспективы развития российско-турецких отношений после вхождения Крыма в состав РФ. Международная жизнь // International Affairs journal, – Москва, – 2015, январь. – с.168-173; Has, K. Doğu Ortaklığı-Gümrük Birliği Rekabetinde Rusyanın Ermenistan Hamlesi // – İstanbul: Analist dergisi, – Kasım 2013, – s.34-49; Has, K. Erdoğanın Rusya

Problemin əhatə etdiyi dövr ingilis dilli əsərlərinin çoxluğu ilə də diqqəti cəlb edir. Əsasən də bu əlaqələrdə hakim olan siyasi nəzəriyyələrin analiz edilməsi də maraq doğuran məsələlərdən sayılmalıdır. Bu cür əsərlərdən biri də Robert Olsonun monoqrafiyası[20] və türk əsilli amerikan tarixçi olan Duygu Bazoğlu Sezerin elmi məqaləsi[21] hesab edilir. Ceyms Varhola[22], Remi Bourgeot[23] və Vladimir Likhacev[24] kimi Avropa tədqiqatçıları iki ölkə əlaqələrinin enerji faktorundan asıllığını elmi faktlarla əsaslandırmağa çalışırlar. Və bu səbəbdən Türkiyə-Rusiya münasibətlərinin uzunmüddətli əməkdaşlıq çərçivəsində irəliləməsinə şübhə ilə yanaşırlar.

XX əsrin sonlarında bu münasibətlərdə digər problemli məsələlərdən biri də "kürd kartı"nın Rusiya tərəfindən məharətlə istifadə olunması idi. Separatçı PKK terror təşkilatını gizli və ya açıq şəkildə dəstəkləyən Rusiya, bunu Türkiyəyə qarşı bir təzyiq aləti kimi istifadə edə bilmişdir. Bu problemli vəziyyətin araşdırılmasında

---

ziyareti: Türk-Rus yakınlaşması ve Bölgesel Boyutları// – Ankara: USAK Analiz, –2013, kasım, sayı: 25, – s.2-14.

[20] Robert, O. Turkey`s Relat ions with Iran, Syria, Israel and Russia 1991-2000 // The Kurdish and Islamist Questions, Costa Mesa, CA. USA: Mazda Publishers, – 2001. – p.232.

[21] Duygu, B.S. "Turkish-Russian Relations: From Adversity to Virtual Reapprochement" Turkey's New world // ed. A.Makovsky. S.Sayari Washington. 2000. – pp. 88-98.

[22] Warhola, W.J. The warming of Turkish-Russian Relations: Motives and Implications, Demokratizatsiya The Journal of Post Soviet Democratization, January, 2006, – pp.127-143: [Electronic resource] / URL: https: www. file:///C:/Users/ Oxucu56 /Downloads/ Warhola-Turkish-Russian-Relations.pdf.

[23] Bourgeot, R. Russia-Turkey: A Relations shaped by energy, – 2013, march, – pp.2-20: [Electronic resource] / URL: https://www.ifri.org/sites/default/ files/atoms/ files /ifri rem ibourgeotrussiaturkeyengmarch2013.pdf.

[24] Likhachev, V. The role of energy in Russia's relations with Turkey and Iran, Center For Strategic International studies, march, 2012, p.2-7: [Electronic resource] / URL: https://csis-prod.s3.amazonaws.com/s3fs-Publicc/legacy_files/files/attachments/ 120529_Likhachev_RussiaEnergy.pdf.

İqor Delanö[25], İrina Qrudinina,[26] Fiona Hillin elmi-tədqiqat əsərləri[27] böyük rol oynamışdır. Amerikalı məhşur siyasi alimlər G.E.Fuller və H.J.Barkeye[28] görə, kürd separatçıların dəstəklənməsinin səbəbləri, Türkiyənin bu illərdə Qafqaz, Orta Asiya və Balkan regionlarında aktiv siyasət həyata keçirməsi Rusiyanı narahat edən başlıca amillər olması idi. Türkiyənin Çeçenistan məsələsi ilə bağlı Rusiyanı sərt tənqid edənlər arasında olması da, RF-nı PKK faktorundan istifadəsini sürətləndirdi. Bu haqda qeyd olunan tarixçilər məsələni öz əsərlərində açıq şəkildə işıqlandırmışdır. Bu istiqamətdə araşdırmalara son bir nöqtə olaraq, PKK ilə mübarizədə Türkiyəyə tam dəstək verir kimi görünən ABŞ-ın 2007-ci ildə yayımladığı terrorizm ilə bağlı hesabatında[29] Türkiyədə Çeçenistana dəstək verən qrupların olduğu haqda məlumatların yer almasını göstərmək olar. Bunu ABŞ-ın çeçen məsələsini Türkiyə-Rusiya münasibətlərində bir vasitə olaraq istifadə etməsi şəklində analiz etmək olar. Amerikalı tarixçi olan Riçard Vetz Türkiyənin Orta Asiyada Rusiya ilə iqtisadi təşkilatlar çərçivəsində əməkdaşlığına müsbət yanaşır. Müəllif bu istiqamətdə yazdığı elmi əsərlərində[30] Türkiyə vasitəsilə aparılan

---

[25] Delanoe, İ. The kurds: A channel of Russian İnfluence in the Middle East?// Franco-Turkish Paper, – 2015. № 14, – Paris: june, 2015. – pp.4-19.

[26] Grudinina, İ. EX-officio: Moscow Won`t let Kurdish Organizations Buil Nests in Russia // Current Digest of the Post Soviet Press, – 1995, 30 August. – Volume: 47, 31, – pp.23-36.

[27] Hill, F. Turkey and Russia: Axis of the Excluded? Survival, Vol.48, N1, spring 2006, – pp.81-92: [Electronic resource] / URL: https://www.brookings.edu/wp-cont ent /uploads/ 2016/06 /2006_survival.pdf.

[28] Henry, J.B. Turkey`s Kurdish Question / J.Henry, E.F.Graham. – New York: Rowman and Littlefield Publishers, – 1998. – 290 p.

[29] U.S. Department of State, Country Reports on Terrorism. – 2007, – 125 p.: [Electronic resource] / URL: https://www.state.gov/ documents/ organization /65470. pdf.

[30] Weitz, R. Russia-Turkey energy ties: Cooperation with conflict // Diplomatia, Wider Middle East/Energy Security. – 2012, September, – №109: [Electronic resource]/ URL: https://www.diplomaatia.ee/en/article/russia-turkey-energy-ties-cooperation- with-conflict/.; Weitz, R. Towards a New Turkey-NATO Partnership in Central Asia // Turkish Policy Quarterly, – 2006. – Vol.5, – pp.6-24; Weitz, R.

Rusiya siyasətinin müəyyən zaman kəsiyindən sonra öz əhəmiyyətini itirəcəyini qeyd edir. R.Vetz təşkilatlar ilə edilən əməkdaşlığa önəm verən ABŞ-ın, gələcəkdə Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmasını yaxşı qarşılayacağına inandığını qeyd edərək, Türkiyənin rolunu bir körpü olaraq qiymətləndirmişdir.

Türkiyə-Rusiya münasibətlərinin hal-hazırda Rusiyada daha da aktuallaşması Aleksandr Duqinin adı ilə bağlıdır. Duqinin Türkiyə ilə bağlı fikirləri də müzakirəyə çox açıqdır. Onu da vurğulamalıyıq ki, 2015-ci il "təyyarə böhranı"ndan sonra Türkiyə ilə olan gərgin münasibətlər zamanında, 2016-ci il mart ayında, Türkiyəyə səfər edən Aleksandr Duqin bu əlaqələrin yenidən bərpa edilməsində mühüm rol oynamışdır. Onun yazdığı əsərlərdə[31] və məqalələrində[32] Rusiyanın Türkiyə ilə bağlı siyasəti tam açıqlanmasa da, bəzi siyasi nəzəriyyələrlə izah edilməyə çalışılmışdır. Müəllif əsasən Qafqaz və Mərkəzi Asiyada toqquşan maraqları diqqətə çatdırmağa çalışmış və hələ də Türkiyənin ABŞ-ın verdiyi əmrləri icra etdiyini qeyd etmişdir. Aleksandr Duqini "Çarqrad" ideologiyasını yaşadanlarından biri kimi tanımaq mümkündür. Bütün bunlara nəzərə alaraq, A.Duqinin Türkiyə ilə bağlı düşüncələrində nə qədər səmimi olduğu sual altındadır.

Türkiyənin xarici siyasi kursunun və onun müxtəlif aspektlərinin öyrənilməsində bu türkoloq mütəxəssislərin əsərləri əhəmiyyətlidir. Avatkova V.A., Drujilovskiy S.B.,[33] Fedorçenko A.V., Boldırev

---

Averting a New Great Game in Central Asia// The Washington Quarterly, – 2006, summer, vol 29: 3, – pp.149-167.

[31] Дугин, А.Г. Проект Евразия / А.Дугин. – Москва: Эксмо-Яуза, – 2004. – 928 с.

[32] Дугин, А.Г. Геополитическое Будущее России: многополярность и основные стратегические перспективы в XX в. // Вестн. Моск. Ун-та. Сер.18, Социология и политология, – Москва, – 2011. – №1, – с.68-96: [Электронный ресурс]/ https://www.socio.msu.ru/vestnik/archive/text/2011/2/03.pdf.

[33] Россия и Турция в новой мировой политической среде (Материалы третьей международной конференции экспертов-тюркологов) // Под ред. В.А.Аваткова, С.Б.Дружиловского, – Москва: МГИМО МИД России, – 27 марта 2015 г. – 254 с.

A.V.,[34] İvanova İ.İ., Ziqanşin M.K.,[35] Meyer M.S., Svistunova İ.A., Urazova E.İ., Ulçenko N.Y.[36] kimi tədqiqatçı türkoloqlar Rusiya-Türkiyə münasibətlərinin müxtəlif istiqamətlərinin və əməkdaşlıq sahələrinin müəyyən olunmuş qanunauyğunluqlarını araşdırmışlar. Pavel Şlıkov[37] da Rusiyanın Avrasiyaçılıq siyasi ideologiyasında Türkiyənin yeri və rolu haqqında məsələlərə öz elmi əsərində geniş yer vermişdir. Bu əsərin xarakterik xüsusiyyəti hal-hazırki RF-nın xarici siyasət konsepsiyasının prinsipləri əsasında yazılması idi. Bu səbəbdəndir ki, müəllif Türkiyənin Avrasiyaçılıq siyasi ideologiyasına daha çox türk respublikaları ilə əlaqələrinin inkişaf etdirilməsi kontekstində baxdığını qeyd etmişdir.

Dissertasiya işi Azərbaycan, türk, rus və ingilis dillərində olan çoxsaylı mənbələr əsasında yazılmışdır. Türkiyə Xarici İşlər Nazirliyinin və Rusiya Xarici İşlər Nazirliyinin bəzi arxiv sənədləri və protokollarının elektron variantları elmi dövriyyəyə cəlb edilməsi[38], o cümlədən bu iki dövlətin bütün sahələrdəki əlaqələrini

---

[34] Турция накануне и после парламентских и президентских выборов 2007 г.// под ред. А.В.Болдырев, Н.Ю.Ульченков, – Москва: ИВ РАН, – 2008. – 234 с.

[35] Шишин, М.Й. Историческое обоснование турецкого евразийства и представляется сомнительным / М.Й.Шишин, А.И.Иванов // Диалог Евразия, – 2002. №6, – с.80-89.

[36] Ульченко, Н.Ю. Динамика российско-турецких отношений в условиях нарастания глобальной нестабильности/ Ю.Ульченко, П.В.Шлыков. – Москва: ИВ РАН, – 2014. – 94 с.; Свистунова, И.А. Предвыборная программа Партии справедливости и развития: внешняя политика Турции до 2023 года: [Электронный ресурс] /URL: https://www.iimes.ru/rus/stat/2011/22-04-11a.htm.

[37] Шлыков, П.В. Евразийство и Евразийская интеграция в политической идеологии и практике Турции // – Москва: Сравнительная политика и Геополитика, – 2017, – Т.8, – №1, – с.58-76: [Электронный ресурс] /URL: https: //cyberleninka. Ru/article/v/evraziystvo-i-evraziyskaya-integratsiya-v-politicheskoy-ideologii-i-praktike-turtsii.

[38] Rusya Federasyonu ile Türkiye Cumhuriyet arasında Avrasyada İşbirliği Eylem Planı (İkili işbirliğinden, çok boyutlu Ortaklığa). Nyu-York 16 kasım 2001: [Elektron resurs] /URL: https://www.turkey.mid.ru/relat_2_t.html.; Rusya Federasyonu ile Türkiye Cumhuriyeti Arasında dostluğun ve çok boyutlu ortaklığın derinleştirilmesine ilişkin ortak Deklarasyon, – Ankara: – 2004, aralık: [Elektron resurs] /URL: https://www.turkey.mid.ru/text_t73.html.; Rusya

günəbəgün işıqlandırılması üçün elektron dövrü mətbuat resurslardan istifadə edilməsi olduqca vacibdir[39]. Dövlətlərarası razılaşmalar,

---

Federasyonunun Türkiye Büyükelçisi P.V.Stegniyin "Orta Asya ekseninde Rusya ve Türkiye" konferansında yaptığı konuşma notları, – 2003, 21-22 nisan, Ortadoğu Teknik Universitesi, – Ankara: [Elektron resurs] / URL: https: // www. turkey. mid. ru/text_tur.html.; Rusya Federasyonu Başbakan Yardımcısı sayın İlya Klebanovun kabul hk: [Elektron resurs] / URL: https: // www.tccb.gov.tr/basin-aciklamaları-ahmet-necdet-sezer/ 1720/4 1 62/rusya-federasyonu-basbakan-yardimcisi-sayın-ilya-klebanovu-hk.html.; Rusya ile Türkiye Arasında Enerji Alanında İşbirliği Anlaşması. Ankara 26.03.1998: [Elektron resurs] / URL: https: // ua.mfa.gov.tr/detay.aspx?5272.; Rus-Türk Yüksek Seviyeli Ortak Çalışma Grubu'nun toplantısına ilişkin açıklama, 17 eylül 2003: [Elektron resurs] / URL: https://www.turkey. mid.ru /text_t1.html.; Rusya Federasyonun Dünya Ticaret Örgütüne Katılımına ilişkin Değerlendirme, TEPAV Ticaret Çalışmaları Merkezi Tarafından Hazırlanmıştır // – İstanbul: TEPAV Raporu, – 2012. – 24 s.; Rusya ile Türkiye Arasında Enerji Alanında İşbirliği Anlaşması. Ankara 26.03.1998: [Elektron resurs] / URL: https: // ua.mfa.gov.tr/detay.aspx?5272.

[39] Из стенограммы выступления Министра иностранных дел России И.С.Иванова на встрече с представителями СМИ по прибытию в Анкару 7 июня 2001 года: [Электронный ресурс]/ URL: https: //www.mid.ru/ru/maps/tr/-/as set_ pub lishe r/Fn 23K lb76LY 2/content/id/580134.; Концепция внешней политики Российской Федерации: утв. Президентом России В.В.Путиным 12 февраля 2013 г.: [Электронный ресурс] / URL: https: //www.consult ant.ru /document/cons_doc_LAW_142236.; Ответ официального представителя МИД России А.А.Нестеренко на вопрос СМИ относительно решения Президента Армении приостановить ратификацию армяно-турецких протоколов: [Электронный ресурс]/ http: //www. mid.ru/ru/foreign policy/news/-/asset_publisher/cKNonkJE02Bw/conten t/id/254238; О межправительственном Соглашении между Российской Федерацией и Турецкой Республикой о сотрудничестве в военной области и подготовке военных кадров Москва, 2 марта 2001 г. http://www.mid.ru/ru/maps /tr//asset_publisher /Fn23Klb76LY2/ content/id/589064; О межправительственном Соглашении между Российской Федерацией и Турецкой Республикой о сотрудничестве в военной области и подготовке военных кадров Москва, 2 марта 2001 г.: [Электронный ресурс]/ URL:http://www.mid.ru/ru/maps/tr//asset_publisher/Fn23Klb76LY2/content/id/589064/; Ответ официального представителя МИД России А.В.Яковенко на вопрос российских СМИ о ситуации вокруг захвата заложников в гостинице «Суисотель» в Стамбуле, 23.04.01: [Электронный ресурс] / URL: https: // www.mid.ru/ru/ maps/tr/-/asset_publisher/Fn23Klb76LY2/content/id/584910/; О введении безвизового режима между Россией и Турцией СООБЩЕНИЕ ДЛЯ

tərtib edilən protokollar, bəyannamələr və digər rəsmi sənədlərdən istifadə edilərək, Türkiyə-Rusiya siyasi münasibətləri tədqiq edilmişdir[40].

Türkiyə Cumhuriyyətinin Xarici İşlər Nazirliyi tərəfindən tərtib edilən bülleten, rəsmi sənədlər, görüşlər, dövlətlərarası razılaşmalar və protokollar əsasında tədqiqat materialları çap edilmişdir[41]. Bu mövzunun araşdırılmasında bu rəsmi mənbəni çox faydalı hesab etmək olar[42]. Digər etibarlı mənbə kimi Türkiyənin hakim partiyası olan AKP-nin ümumi seçkilərdən əvvəl partiya bəyannamələri haqqında yazılan rəsmi sənədlər toplusudur[43]. Bu rəsmi sənədlər Türkiyə Respublikasının xarici siyasətini tənzimləyən Ədalət və İnkişaf partiyasının proqramı səciyyəsini daşıyır. Qeyd olunan mənbədə diqqətçəkən məqam, Rusiya ilə olan münasibətlərə, Qafqaz region ilə bir müstəvidə yer verilməsi idi. Ənənəyə sadiq qalan AKP yenə də prioritet məsələ olaraq Avropa Birliyi və ABŞ-la əməkdaşlıq məsələlərini müəyyən etmişdir. ABŞ Konqresinin Araşdırma Servisinin hesabatında keçmiş sovet dövlətlərinin yenidən bərpa

---

СМИ: [Электронный ресурс] / URL: https: //www. mid. ru/ru/foreign_policy/ news/-/as set_pub lisher /cK Non kJ E 02Bw/content/ id/249266/; Постановление Государственной думы Федерального Собрания Российской Федерации “Об обращении Государственной думы Федерального Собрания Российской Федерации к депутатам» Турецкой Республики об урегулировании курдской проблемы. от марта 1998 года: [Электронный ресурс] / URL: https://www.akdi.ru/gd/_2242-II_SZRF.

[40] http://www.turkrus.com/Default.aspx, https://www.gazetem.ru/

[41] DIŞİŞLERİ BAKANLIĞI// Enerji, Su ve Çevre İşleri Genel Müdür Yardımcılığı Enerji, Su Kayhakları ve Çevre Haber Bülteni Enerji: [Elektron resurs] / URL: https://www.mfa.gov.tr/data/Kutuphane/Yayinlar/ EnerjiSuveCevre Bulteni16.pdf.

[42]Sorumluluk ve Vizyon 2014 Yılına Girerken Türk Dış Politikası // Türkiye Cumhuriyyeti Dışişleri Bakanlığı, – 2013. – s.30.

[43] AKP Parti Proqramı, erişim tarihi 08.06.2010: [Электронный ресурс] / URL: http://www.akparti.org.tr/vi-dis-politika-79.html?pID=50, 2011 Genel seçimleri, Seçim Beyannamesi, Ankara Tanıtım ve Medya Başkanlığı, şubat, 2015 293 s. file:///C:/LGN2/2011-beyanname%20AKP.pdf.; Seçim Beyannamesi. AK Parti TBMM kütuphanesi, Ankara, 2002, 94. sfile: [Электронный ресурс] / URL: / /C:/LGN2/200304063%20AK%20PARTI%20SECIM% 20BEYANNAMESI% 202002%20-ci%20il.pdf.

olunması haqqında bir çox layihələr yer almışdır[44]. ABŞ-ın Postsovet məkanındakı siyasətinin əsas aparıcı qüvvəsinin Türkiyə olduğu qeyd olunur. Dissertasiyanın işlənmə dərəcəsi ayrıca olaraq təhlil edilərək, məqalə şəklində dərc edilmişdir.[45]

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti Türkiyə-Rusiya siyasi münasibətlərin 1991-2013-cü illərdə, qlobal siyasi proseslər çərçivəsində hərtərəfli tədqiq etmək və ayrı-ayırılıqda bu ölkələrin qarşılıqlı olaraq bir-birilərinə olan münasibətlərin transformasiyasını təhlil etməkdən ibarətdir. Dissertasiyanın predmeti kimi Türkiyə-Rusiya siyasi münasibətləri və bu münasibətlərin qonşu regionlarda cərəyan edən hadisə və proseslərə təsirini problem şəkildə tədqiq edilməsi götürülmüşdür. Bu iki dövlətin xarici siyasətlərinin həyata keçirilmə mərhələləri, metodları və səciyyəvi xüsusiyyətləri, ikitərəfli münasibətlərdə əsas prinsip olaraq diqqətə alınmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin qarşıya qoyduğu başlıca məqsəd 1991-2013-cü illərdə Türkiyə-Rusiya siyasi münasibətlərinin bütün aspektlərinin, xüsusilə də geostrateji sahələrdə əməkdaşlığının kompleks şəklində araşdırılmasıdır. Bəhs olunan dövrdə bu iki dövlətin siyasi münasibətləri çərçivəsində, ətraf regionlarla bağlı planlarını və siyasətlərini reallaşdırmaq üçün həyata keçirdikləri tədbirləri ardıcıl şəkildə müxtəlif mənbələr, dövri mətbuat, internet resursları, protokollar, rəsmi sənədlər və elmi nəzəriyyələrin müqayisəli təhlili əsasında araşdırılmasına səy göstərilmişdir. Dissertasiyada qarşıya qoyulan məqsədə nail olmaq,

---

[44] U.S.A. Congressional Research Service, Post-Soviet Transformation: U.S.A. Congressional Research Service, Post-Soviet Transformation: Implications for U.S. policy // C.R.S. ISSU Brief; Major Planning Issue/ by F.T.Miko, Coordinator; Foreign Affairs and National Defense Division. Washington D.C. – 1992, 8 January, – 34 p.

[45] Qəhrəmanov, E. Турецко-российские отношения в 1991-2013 годы: некоторые аспекты историографии // – Москва: Современная Научная Мысль. Научный Журнал НИИ Истории, Экономики и Права. – Москва, – 2017. №5, – s. 106-111.

mövzunu hərtərəfli şərh etmək üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Rusiya və Türkiyənin strateji maraqlarının köklərini ayrı-ayrılıqda müəyyənləşdirmək;
- Siyasi münasibətlərin iqtisadi əlaqələr kölgəsində qalmasına səbəb olan amillərin aydınlaşdırılması;
- Soyuq Müharibədən sonra iki dövlət arasında hələ də problemlərin davam etməsinin səbəblərini analiz edilməsi və bu "Soyuq sülh" çərçivəsində yaranmış problemli məsələlərin həlli yollarının tədqiq edilməsi;
- Türkiyə və Rusiya siyasi maraqlarının Qafqaz, Orta Asiya, Yaxın və Orta Şərq, Balkan və Qara dəniz hövzəsi regionlarında tarixi toqquşması ilə Soyuq müharibə sonrası qarşıdurmaların kompleks şəkildə müqayisə edilməsi;
- Müxtəlif təşkilatlarda bu iki dövlətin qarşılıqlı əlaqələrinin inkişafı istiqamətində atılan addımların araşdırılması;
- Hələ günümüzdə də Türkiyə və Rusiya münasibətlərinin taktiki əməkdaşlığının davam etdirilməsini və bu əlaqələrin strateji əməkdaşlığa və ya ortaqlığa çatmadığını sübut etmək;
- Türkiyənin Rusiya, Qərb və ABŞ arasında hansı siyasi manevrlərlə hələ də öz milli təhlükəsizliyini necə qoruyub, saxlaya bilməsinin araşdırılması;
- Türkiyə-Rusiya əlaqələrində siyasi düşüncə və nəzəriyyələrinin qarşılaşdırılaraq təhlil edilməsi.

**Tədqiqat metodları**. Tədqiqatın nəzəri-metodoloji əsasını elmi obyektivlik, tarixi hadisələrə hərtərəfli yanaşma və sistemlilik prinsipləri təşkil edir. Ayrı-ayrı məsələlərin şərhi zamanı mənbələrdəki faktlara tənqidi yanaşma, müqayisə və qarşılaşdırılmadan istifadə edilmişdir. Tarixi tədqiqatlarda qəbul olunmuş ümumi elmi prinsiplər çərçivəsində, müəllif problemin araşdırılmasında şərh, təhlil, tənqidi-təhlil və tarixi müqayisə metodlarından istifadə etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya mövzusunun olduqca aktual və xüsusilə regionumuz üçün spesifikliyini nəzərə alaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır.

- Sovet İttifaqının dağılmasından sonra Türkiyə və Rusiya Federasiyası arasında rəsmi münasibətlər 25 may 1992-ci ildə “Türkiyə Respublikası ilə Rusiya Federasiyası Arasındakı Münasibətlərin Əsasları Haqqında Müqavilə” mətninin imzalanmasıyla başlamasına baxmayaraq, Türkiyə və Rusiya arasında etimadsızlıq və soyuq münasibətləri şərtləndirən amillər araşdırılmışdır.

- XX əsrin 90-cu illərində Türkiyə və Rusiya münasibətlərində PKK və Çeçen problemlərinin tarixi kökləri, o cümlədən bu əlaqələrə təsiri analiz edilmişdir. Türkiyə ilə Rusiya əlaqələrinin bu mərhələsində, çeçen və PKK problemlərinin ortaya çıxması rəqabət mühitini daha da kəskinləşdirmişdir.

- Aparılan araşdırmalardan məlum olur ki, 1990-ci illərdə münasibətlərdə soyuqluq yaradan amillərdən biri də Türkiyənin boğazlarda hərəkətinin nizamalanması ilə bağlı qəbul etdiyi 1994 və 1998-ci illər nizamnamələri oldu. Türkiyə hədəflədiyi layihələrin qəbul edilməsi üçün, digər ünsürlərlə yanaşı, boğazları da bir vasitə olaraq istifadə etməsi araşdırılmışdı.

- Dağlıq Qarabağ probleminin bu ikilli münasibətlərə təsiri müxtəlif mənbələr əsasında araşdırılmışdır. Təbii ki, bu münasibətlərə ən dərin iz salan problemlərdən biri, ətraf regionlarda baş vermiş etnik qarşıdurmalar və qeyri-sabitliklərin hələ də davam etməsidir.

- Türkiyə və Rusiyanın XX əsrin sonlarında və XXI əsrin əvvəllərində Qafqaz və Mərkəzi Asiya regionları ilə bağlı siyasətləri qarşılaşdırılaraq, oxşar və fərqli cəhətləri təhlil edilmişdir.

- Türkiyə və Rusiyanın geosiyasi qarşıdurmalarında siyasi nəzəriyyələr, düşüncələr və ideyaların xarici siyasətdə nə dərəcədə əhəmiyyətli olduğu araşdırılmışdır. Araşdırmalardan, Rusiyanın Avrasiyaçı siyasətinin Türkiyədə çox ölçülü şəkildə əks olduğunu söyləmək mümkündür.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi konkret olaraq aşağıdakı məsələlərdə öz əksini tapmışdır

- Azərbaycan tarixşünaslığında ilk dəfə Türkiyə-Rusiya siyasi münasibətlərinin bu dövrü xüsusi olaraq tədqiqat obyekti seçilmişdir.

- XXI əsrin əvvələrindən qlobal dəyişikliklər fonunda Türkiyə-Rusiya münasibətlərində xarakterizə olunan yeni mərhələnin strateji ortaqlıq səviyyəsinə çatmadığı tədqiqat işində siyasi faktlarla sübuta yetirilmişdir.

- Soyuq müharibədən sonra Türkiyə-Rusiya əlaqələrini, İmperiya və SSRİ dövrlərindəki əlaqələrdən ayıran ən vacib fərq, Soyuq Müharibədən sonra münasibətlərdə insan faktorunun önə çıxması, xalqların bu əlaqələrə müdaxilə etməsi və ictimaiyyətlərinin dolayı və ya birbaşa təsiri olmuşdur. İmperatorluq və SSRİ dövrlərində əlaqələr ali səviyyəli qurumlar arasında, siyasətçilər, dövlət xadimləri və hərbçilər səviyyəsində həyata keçirilmişdir. Hər iki ölkə xalqı bu zaman kəsiyində bu münasibətlərdə heç bir rol oynaya bilməmişdir. SSRİ dövründə mədəni əlaqələr artmış olsa da, ideoloji qayğılarına görə, dövlət nəzarəti altında təsirsiz qalmış oldu. Lakin 1991-ci ildən sonra, Soyuq müharibədə olan məhdudiyyətlərin ortadan qalxmasıyla, müşahidə edilən xalqların yaxınlaşması və insan əlaqələrinin artması ikilli münasibətlərin daha əvvəlki heç bir döv ründə qeydə alınmaması tədqiqat işində qeyd edilmişdir.

- Beynəlxalq siyasi münasibətlərin inkişafı çərçivəsində, Türkiyə-Rusiya arasında əməkdaşlığını siyasi mexanizmlərinin strukturuna dair tədqiqat işində ətraflı məlumat verilmişdir.

- Azərbaycan tarixşünaslığında az bəhs edilən Yeni Osmanlıçılıq siyasi nəzəriyyəsi tam olaraq araşdırılmış və bu siyasi xəttin Rusiya ilə münasibətlərində yaranan gərginliklər tədqiq edilmişdir.

- Rusiya öz qarşısında həmişə Kamalçı bir Türkiyə görməyi istəmişdir. Rusiya daha çox Türkiyə Cümhuriyyətinin demokratik prinsipləri çərçivəsində qalmasında maraqlı idi. Rusiyanın sonradan tərtib edilən, imperiya xarakterli siyasi nəzəriyyələrə və qatı islamçılığa qarşı olduğu qeyd edilmişdir.

- Soyuq Müharibədən sonra Rusiyada hakimiyyətdə olan Atlantikçilərin (Qərbçilərin) Orta Asiya daxil olmaqla, keçmiş Sovet ölkələrinə laqeyd qalması qavrayışının kökündən səhv olduğu sübut edilmişdir.

- Enerji sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin əsas xarici və daxili amillərinin müəyyənləşdirilməsi, Türkiyə və

Rusiyanın xarici ticarət strategiyasının prioritetləri tədqiq edilmişdir. Türkiyənin strateji və iqtisadi maraqlarında Rusiyanın əhəmiyyətinin nə dərəcədə danılmaz bir fakt olduğu ortaya çıxarılmışdır.

- 1994-2003-cü illər Türkiyə-Rusiya arasındakı Boğazlarda yaranmış probleminin istiqamətləri müəyyənləşdirilmiş və tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəalarından və nəticələrindən dərslik və dərs vəsaitlərinin hazırlanmasında, Türkiyənin və Rusiyanın bu illərdə Qafqaz və Mərkəzi Asiya regionunda siyasətinə dair əsərlərin yazılmasında, problemin digər fəsillərindən müxtəlif elmi-tədqiqat işlərinin aparılmasında, dissertasiya materiallarından tələbələrin seminar məşğələlərinə hazırlaşmaları zamanı istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işinin mövzusu Bakı Dövlət Universitetinin Tarix fakültəsi Elmi Şurasının 1 aprel 2014-cu il tarixli iclasında və 13 mart 2015-ci il Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tarix Problemləri üzrə Elmi Şurasının müvafiq iclasında müzakirə edilərək təsdiq edilmişdi. Dissertasiya işinin əsas müddəaları elmi məqalələr şəklində Azərbaycan və xarici ölkələrin nüfuzlu elmi jurnallarında dərc olunmuşdur. Tədqiqatı işinin məzmununa dair, iddiaçı Azərbaycanda və xarici ölkələrdə keçirilmiş beynəlxalq və respublika konfranslarda məruzələrlə çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Giriş - 21 s. (s.3-24), üç fəsil (s.24-179), 8 paraqraf, 1.1. - 16 s. (s.24-40), 1.2. - 29 s. (s.40-69), 1.3. - 14 s. (s.69-83), 2.1. - 23 s. - (s.84-107), 2.2. - 18 s. (s.107-135), 2.3. - 18 s. (s.135-153), 3.1. - 13 s. (s.154-167), 3.2 - 12 s. (167-179), Nəticə - 17 s. (s.180-187) və İstifadə edilmiş ədəbiyyat siyahısından - 29 s. (s.188-217) ibarətdir. Dissertasiya işi ədəbiyyat siyahısı istisna olmaqla cəmi - 355 min 328 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, istifadə olunmuş mənbə və ədəbiyyatlar təhlil edilmiş,tədqiqatın obyekti və predmeti, dissertasiya işinin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, nəzəri-metodoloji əsası, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Üç yarımfəsildən ibarət olan birinci fəsil **"SSRİ-nin süqutu və Soyuq müharibədən qalan mirasın Türkiyə-Rusiya münasibətlərinə təsiri"** adlanır. **"1990-cı illərdə Türkiyə-Rusiya münasibətlərində qeyri sabitlik və yeni axtarışlar. Boğazlar məsələsi"** adlı birinci yarımfəsildə Türkiyə və Rusiya arasında etimadsızlıq və soyuq münasibətləri şərtləndirən amillər araşdırılmışdır. Sovet İttifaqının dağılmasından sonra Türkiyə və Rusiya Federasiyası arasında rəsmi münasibətlər 25 may 1992-ci ildə "Türkiyə Respublikası ilə Rusiya Federasiyası Arasındakı Münasibətlərin Əsasları Haqqında Müqavilə" mətninin imzalanmasıyla başlanmışdır. Bu müqavilədən sonra başlanan münasibətlər pilləli olaraq yaxşılaşmağa doğru getdi.1992-ci ildə imzalanan müqavilədən, 1999-cu il baş nazir B.Ecevitin Rusiyaya rəsmi səfərinə qədər olan müddət, münasibətlərin ilk dövrü olaraq səciyyələndirilə bilər. Soyuq müharibə atmosferindən çıxan iki yaxın qonşu ölkə yeni dönəmə ümidverici bir şəkildə başladılar. İlk illərdə sürətli bir şəkildə başlayan yaxınlaşma prosesi həm Türkiyədən, həm də Rusiyadan qaynaqlanan bəzi səbəblərə görə istənilən səviyyəyə çata bilməmişdir. Türkiyənin Mərkəzi Asiya ölkələri ilə inkişaf etdirdiyi "model ölkə" konsepsiyasını, keçmiş sovet coğrafiyasında, əsasəndə, Orta Asiyanı özünün "arxa bağçası" olaraq görən Rusiya tərəfindən soyuq qarşılanırdı.[46]

1990-cı illər iki dövlət arasında münasibətlərin ən problemli olduğu illər olaraq sayıla bilər. Əməkdaşlıq və rəqabət şəklində inkişaf edən bu əlaqələrin ən vacib tərəfi iqtisadi münasibətlər idi. 1991-ci ildən davamlı inkişaf edən ticarət-iqtisadi əməkdaşlıq iki dövlət arasındakı siyasi

---

[46] Çomak, H. 21 Yüzyılda Çağdaş Türk dış politikası ve diplomasisi/ H.Çomak- Kocaeli: Umuttepe Yayınları, – 2010. – 275 s.

münasibətlərin inkişafında lokomativ rolunu oynamışdır. Bu illərdə siyasi əlaqələr hər zaman iqtisadi münasibətlərin kölgəsində qalmış və heç bir zaman iqtisadi əlaqələr səviyyəsinə çata bilməmişdir. İki dövlət arasındakı əlaqələr strateji ortaqlıq səviyyəsinə çata bilməsə də, aralarındakı yüzlərcə illik geosiyasi qarşıdurmanı geoiqtisadi əməkdaşlığa çevirməyə çalışmışlar.[47] Bu zaman kəsiyində inkişaf edən iqtisadi əlaqələrə baxmayaraq, hər iki ölkədə də enerji, etnik regional rəqabət önə çıxmışdır. Bu dövrü hər iki tərəf də düzgün qiymətləndirməmişdir. Türkiyə prezidenti Turqut Özalın 11-15 mart 1991-ci ildə Moskvaya etdiyi səfər siyasi münasibətlərin geniş sahələrdə inkişafı ilə bağlı atılmış ilk addım oldu. Belə bir rəsmi səfər, 1969-cu ildə Cövdət Sunayın Moskvaya səfərindən bəri həyata keçməmişdi. 1991-ci il martın 12-də Moskvada T.Özal və M.Qorbaçov Türkiyə və SSRİ arasında dostluq, yaxşı qonşuluq və əməkdaşlıq haqqında müqavilə bağladılar.[48] Lakin dekabrda SSRİ-nin dağılması ilə bu müqavilə öz əhəmiyyətini itirmiş oldu. Rusiya Federasiyası qurulduqdan sonra iki ölkə arasında qarşılıqlı siyasi səfərlər həyata keçirilmişdi.1992-ci ildə Türkiyə Xarici İşlər Naziri Hikmət Çətinin Rusiyaya rəsmi səfəri və qarşılıqlı olaraq Rusiya Xarici İşlər naziri Andrey Kozırevin Ankara rəsmi səfəri münasibətlərin gələcəyi üçün atılmış addımlar olacaqdır.

1992-ci il avqustun ayının 25-28 tarixləri arasında Rusiya Federasiyasının dövlət katibi G.E.Burbulisin Türkiyəyə rəsmi səfəri çərçivəsində imzalanmış "Türkiyə-Rusiya İnformasiya Protokolu" iki ölkə Xarici İşlər Nazirlərinin illik görüşləri haqqında informasiya verilməsini nəzərdə tuturdu[49].

İtirilmiş olaraq qeyd etdiyimiz birinci dövrü bitirən 1999-cu ilin dekabr ayında, Türkiyənin baş naziri Bülent Ecevitin Moskvaya həyata keçirtdiyi səfər oldu. Bu səfərlə Türkiyə Çeçenistan məsələsinin

---

[47] Özbay, F. Soğuk Savaş sonrası Türkiye-Rusya ilişkileri: 1992-2010 // Bilgi Strateji, – Bahar, – 2011. c.3, sayı:4, – s.41.

[48] Qasımlı, M.C. SSRİ-Türkiyə əlaqələri (Türkiyədə 1980-ci il çevrilişindən SSRİ-nin dağılmasına qədər) / M.Qasımlı. – İstanbul: Kaknüs yayınları, – 2012. – s.451.

[49]Дипломатический Вестник // "Протокол о Российско-Турецких консультациях", – 1992. №2 (17-18), – s.5-6.

Rusiyanın daxili işi olduğunu açıqca elan edərək 1990-cı illərdə münasibətlərdə böhran yaradan etnik kartların artıq masadan qaldırılmasının lazım olduğunu ifadə etmişdir. Beləliklə birinci dövrə son qoyulmuşdu.

Türk boğazlarının günümüzdə də hərbi siyasi cəhətdən əhəmiyyəti heç bir şəkildə azalmayıb, əksinə tarixində görülməmiş dərəcədə artmış və qarışıq vəziyyət almışdır. Beynəlxalq münasibətlər sistemində, Montrö Konvensiyası kimi hər gün dinamik tətbiq sahəsi olan digər bir müqavilə demək olar ki, yoxdur. Yarım fəsildə aparılan araşdırmalardan məlum olur ki, 1990-ci illərdə münasibətlərdə soyuqluq yaradan amillərdən biri də Türkiyənin boğazlarda hərəkətin nizamalanması ilə bağlı qəbul etdiyi 1994 və 1998-ci illər nizamnamələri oldu. Bu boğazlarda hərəkət edən rus ticarət gəmilərini çətin vəziyyətə salmışdır. Türkiyənin Boğazların məruz qaldığı tanker təhlükəsi arqumentini, enerji nəqliyyat xətləri məsələsində yürütdüyü ümumi xarici siyasətin həyata keçirilə bilməsi üçün uğurlu şəkildə istifadə etdiyini deyə bilərik. Boğazlar üçün təhlükə var idi, lakin Türkiyə hədəflədiyi layihələrin qəbul edilməsi üçün digər ünsürlərlə yanaşı, boğazları da bir vasitə olaraq istifadə etdi.

**“Türkiyə-Rusiya münasibətlərində PKK və Çeçen problemləri”** adlanan ikinci yarımfəsildə XX əsrin 90-cu illərində Türkiyə və Rusiya münasibətlərində PKK və Çeçen problemlərinin tarixi kökləri, o cümlədən bu əlaqələrə təsiri analiz edilmişdir. Türkiyə ilə Rusiya əlaqələrinin bu mərhələsində, çeçen və PKK məsələlərinin baş verməsi rəqabət mühitini daha da kəskinləşdirirdi. 1995-ci il fevral ayında hər iki ölkə kürd və çeçen məsələlərinə müdaxilə etməmək niyyətini nümayiş etdirən terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı əməkdaşlıq məqsədilə təhlükəsizlik protokolu imzaladılar. Türkiyənin həyata keçirdiyi siyasətə uyğun olaraq, Rusiya PKK probleminə yanaşması ilə Türkiyənin Çeçenistan məsələsinə yanaşması arasında bir paralelik və hətta bənzərlik qurula biləcək addımlar atdı. Aparılan araşdırmalar göstərdi ki, bu çərçivədə I Çeçen-rus müharibəsi zamanı Rusiya və Türkiyə arasında hökumət səviyyəsində qarşılıqlı yanaşmalar bir-birinə qarşı ciddi mahiyyətdə tədbirli və təmkinli olmuşdur.

Təbii ki, terrorizmlə beynəlxalq səviyyədə mübarizə aparmaq üçün qarşılıqlı əməkdaşlıq ən təsirli vasitələrdən sayılır. Məsələn, Rusiya və Türkiyə bu yolda əhəmiyyətli addımlar atsa da, bəzi mühüm çətinliklər

ortaya çıxırdı. Bu çətinliklərdən başlıcası beynəlxalq aləmdə terrorizmin vahid anlamının olmamasıdır. Məhz bu sahədə Türkiyə və Rusiya arasında problemlərin yaşanması açıq-aydın görünürdü. Həm Rusiya, həm də Türkiyə Cümhuriyyəti bəzi məsələlərdə qarşı-qarşıya gəlsələrdə, terrorizmlə mübarizə mövzusunda ortaq məxrəcə gələ bilmişdilər. Əgər iki ölkənin etnik və siyasi qurluşunu nəzərə alsaq, bu siyasi əlaqələrdəki ən böyük nailiyyətlərdən biri sayıla bilərdi.

**"Dağlıq Qarabağ problemi Türkiyə-Rusiya münasibətlərində"** adlanan üçüncü yarımfəsildə Dağlıq Qarabağ probleminin bu ikilli münasibətlərə təsiri müxtəlif mənbələr əsasında araşdırılmışdır. Təbii ki, bu münasibətlərə ən dərin iz salan problemlərdən biri, ətraf regionlarda baş vermiş etnik qarşıdurmalar və qeyri-sabitliklərin hələ də davam etməsidir. Sovetlər İttifaqı dağıldıqdan sonra, Rusiya keçmiş sovet ölkələrində öz varlığını qoruyub saxlamaq üçün separatçı qüvvələrə dəstək verərək və bu ölkələrə təzyiq göstərərək Qərbin inteqrasiyasına mane olmağa davam edirdi. Türkiyə-Rusiya siyasi əlaqələrində rəqabətin başlıca istiqamətlərindən biri kimi, süni şəkildə ortaya atılmış Dağlıq Qarabağ problemidir. Təbii ki, bu problem haqqında danışarkən, II Qarabağ müharibəsi zamanı bu münasibətlərdə transformasiyanın aspektlərinin təhlil edilməsi də vacibdir. Rusiya və Türkiyənin Cənubi Qafqazdakı siyasi maraqlarına ayrı-ayrılıqda baxmaq və analiz etmək üçün, 2020-ci il sentyabr 27-də başlayan Qarabağ müharibəsi bir nümunə olmuşdur. Rusiya Cənubi Qafqazda ABŞ-ın ola biləcək hər hansı bir aktiv siyasətini qabaqlamaq üçün müharibədən yan aldı. Türkiyə və Azərbaycanı öz tərəfinə çəkmək üçün konkret addımlar atmış oldu. Təbii ki, bu Cənubi Qafqazda Azərbaycanın və Türkiyənin söz haqqının və rolunun üstün olması ilə bağlı idi. Dolasıyla Rusiya, heç kimin gözləmədiyi kimi, əks gediş etdi. Bu çar və Sovet Rusiyası dövründən bu yana Qafqaz strategiyasında yaşanan bir ilk idi. Və Rusiya üçün Cənubi Qafqazın həyati önəm daşıdığı, hətta qırmızı xətt olduğunu bir daha gördük. İkinci Qarabağ müharibəsi Cənubi Qafqazın siyasi mənzərəsini müəyyən mənada dəyişə bildi. Rusiya bu müharibəni nəzarət altında saxlamağa çalışırdı. Əgər Azərbaycan ordusu Şuşa şəhərini azad etdikdən sonra, uğurlarını davam etdirsəydi, onda Türkiyənin rolu ön plana çıxmış olacaqdı. Atəşkəsdən sonra, müzaki-

rələrdə Rusiya ilə bərabər zəminə sahiblənə bilərdi. Bu Türkiyənin Cənubi Qafqazdakı mövqeyinin gücləndirilməsi üçün fürsət verəcəkdi. Qısaca olaraq Cənubi Qafqaz regional xəritəsinə oyunçu dövlətlərin baxış bucaqları rəngarəngliyi ilə seçilir.[50] Dissertasiyanın birinci fəslində tədqiq edilən bu problemlərin hər biri ayrıca məqalələr şəklində də dərc olunmuşdur.[51]

Üç yarımfəsildən ibarət olan ikinci fəsil **"Türkiyə-Rusiya əlaqələrində mövcud problemlərin həlli və strateji əməkdaşlığa doğru addımların atılması"** adlanır. **"2000-ci illərdə Türkiyə-Rusiya siyasi münasibətləri"** adlanan birinci yarımfəsildə, XXI əsrin əvvəllərində hər iki ölkənin ayrı-ayrılıqda xarici siyasət prinsiplərini və qarşılıqlı olaraq qurulan əlaqələrdə əməkdaşlıq mexanizmləri araşdırılmışdır. Soyuq müharibədən sonra Türkiyə və Rusiya arasındakı əlaqələrdə 2000-ci illər bir çox baxımdan daha əhəmiyyətli və daha realist münasibətlər kimi irəli çıxmışdır. Bu illər hər iki ölkənin yaxın keçmişdən çıxardıqları dərslərlə, aralarındakı etimad bağlarını gücləndirmək istiqamətində axtarış içərisinə girdikləri illərdir. Ümumi çərçivədən baxdıqda, bu illərdə əlaqələrin sahəsinin genişlənməsi, siyasi dialoqun artdığı, ictimai-siyasi münasibətlərin qarşılıqlı olaraq genişlənməsi və bunun nəticəsi olaraq qarşılıqlı inam və etibarın gücləndirilməyə çalışıldığı müşahidə edilməkdə idi. XX əsrin 90-ci illərin rəqabət xarakterli əlaqələrindən çıxarılan dərslər və 2000-ci illərin ortaya çıxartdığı fürsətlərin köməyi ilə qarşılıqlı münasibətlər regional və

---

[50] Qəhrəmanov, E. Türkiyə-Rusiya münasibətlərindəki dəyişikliklərin İkinci Qarabağ müharibəsindəki əksetmələrinə ümumi bir baxış// – Bakı: Bakı Avrasiya Universiteti Elmi-nəzəri jurnal, Sivilizasiya, – 2021, cild 10, №2. – s.96-101.

[51] Qəhrəmanov, E. Qafqaz regionunda dünya dövlətlərinin geosiyasi və strateji maraqları// – Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – Bakı, – 2013, №2. – s.126-132; Qəhrəmanov, E. Müasir dövrdə Türkiyə-Rusiya münasibətlərində Qara dəniz boğazları məsələsi // – Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – Bakı, – 2016. №1 – s.167-173; Qəhrəmanov, E. Türkiyə-Rusiya münasibətlərində çeçen problemi// – Azərbaycan Milli Elmlər Akademiyası. Tarix İnstitutu. Elmi Əsərlər. – Cild 59, – Bakı, 2016. – s.118-125; Qəhrəmanov, E. Türkiyə-Rusiya münasibətlərində Xəzərin enerji ehtiyatlarının rolu// – Tarix və onun problemləri. – Bakı, – 2014. №3, – s.145-150.

qlobal miqyasda, dünyada baş verən hadisələrə paralel olaraq yenidən formalaşırdı. Bu dövrdə (2000-2013) hər iki ölkənin yürütdüyü regional, qlobal xarici siyasət və maraq anlayışları ticarətdən iqtisadiyyata, siyasətdən mədəniyyətə qədər çox ölçülü əlaqələr şəklində formalaşmışdı. Olduqca uğurlu adlandıra biləcəyimiz siyasi dialoq kanalları əməkdaşlığın inkişaf etdirilməsi üçün vacib faktorlardan biridir.

**"Qafqaz və Mərkəzi Asiya Türkiyə-Rusiya əlaqələrində"** adlanan ikinci yarımfəsildə Türkiyə və Rusiyanın XX əsrin sonlarında və XXI əsrin əvvəllərində Qafqaz və Mərkəzi Asiya regionları ilə bağlı siyasətləri qarşılaşdırılaraq, oxşar və fərqli cəhətləri təhlil edilmişdir. Hər iki dövlət üçün olduqca əhəmiyyət kəsb edən bu regionlar vacib geoiqtisadi və geosiyasi mərkəz rolunu oynamaqdadır. XXI əsrin əvvəllərində siyasi qarşıdurma və siyasi ittifaqlar yerini iqtisadi yaxınlaşma və ittifaqlara buraxmışdır. Təxminən, 500 ildən bəri Avrasiya məkanında bir-biri ilə mübarizə edən Rusiya və Türkiyənin soyuq müharibədən sonra rəqabət və mübarizə sahəsi böyük ölçüdə Qafqaz və Mərkəzi Asiya regionları olmuşdur. Bu geosiyasi əhəmiyyətə malik olan regionlar hər iki ölkənin az qala eyni hədəflərə yönələn strateji maraqlarının toqquşduğu bir regiondur. Türkiyə üçün böyük əhəmiyyəti olan Qafqazda, Rusiya Federasiyasının hər bir hərəkəti Türkiyə üçün mənfi və müsbət təsir və nəticələr doğururdu. Tarixdə olduğu kimi, günümüzdə də Türkiyənin və regionun gələcəyi Rusiyanın gələcəyi ilə yaxından əlaqəlidir. Bütün bu hadisələrin fövqündə, Türkiyənin Soyuq Müharibədən sonra formalaşmaqda olan beynəlxalq sistemdəki mövqeyi əhəmiyyət daşıyır. Türkiyə qarşısına çıxan bu imkan və fürsətləri yaxşı qiymətləndirərək tutmuş olduğu bu tarixi fürsətdən faydalanmalı və türk respublikaları ilə arasında səmərəli və effektiv bir əlaqə qurmalıdır. Bu əlaqələr möhkəmləndikcə Rusiya Türkiyədən ehtiyat edəcəyi gözlənilir, əks halda Mərkəzi Asiyanı arxasına alan bir Rusiya daha aqressiv və Türkiyəyə daha çox təzyiq edəcək. Hesab edirik ki, Beynəlxalq münasibətlər sistemində, Avro-Atlantizmdən Asiya-Pasifik nizamına keçidin şahidi olacağıq. Qlobal siyasi, iqtisadi və hərbi mərkəzin yavaş-yavaş şərqə doğru getməsi gözlənilir.

Üçüncü yarımfəsildə isə **"Beynəlxalq təşkilatlarda Türkiyə-Rusiya əməkdaşlığı"** tədqiq edilmişdir. Müəyyən mənada həm Rusiya,

həm də Türkiyə bir-birilərini diqqətlə izləmək və yaxından xarici siyasətləriylə maraqlanmaq üçün beynəlxalq təşkilatlarda yer alması qarşılıqlı olaraq nəzarət mexanizmlərinin yaranmasına gətirib çıxarırdı. Beləliklə, hər iki tərəf də qarşılıqlı olaraq bir-birilərinə bu təşkilatlarda nəzarət edə biləcəklər. Burda bir maraqlı fakt ortaya çıxır.Rusiyanın təşəbbüsü ilə yaradılan siyasi və iqtisadi təşkilatlarda Türkiyə tam üzvlük ala bilməmişdir. Türkiyənin təşəbbüsü ilə yaradılan təşkilatlarda isə Rusiyanın açıq-aydın üzv dövləti kimi görə bilərik. İki dövlətin də ətraflarını əhatə edən bölgələrdə bir-biriylə həm kəsişən, həm də toqquşan maraqlar yer alır. Bu ikili vəziyyət, gələcək Türkiyə-Rusiya münasibətlərini çətin bir vəziyyətə salacaqdır. Türkiyə və Rusiya Avrasiya geosiyasətində iki güclü və nüfuzlu fiqur sayılır. İki ölkənin münasibətləri sadəcə özlərinə təsir etməklə kifayətlənməyib, bütün Avrasiya coğrafiyasına təsir gücünə sahibdir. Bu səbəbdən Avrasiya geosiyasətində hadisələrin gedişatına təsir etmək istəyən region daxilində və region xaricində bütün oyunçular iki ölkə arasında inkişaf etməkdə olan münasibətlərə diqqət etmək məcburiyyətindədirlər. Dissertasiyada problem şəklində araşdırılan bu məsələlərlə bağlı ayrıca məqalələr də çap edilmişdir.[52]

**“Avrasiyaçılıq və Yeni Osmanlıçılıq siyasi düşüncələrinin Türkiyə-Rusiya münasibətlərinə təsiri”** adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. **“Rusiyanın Yeni Avrasiyaçılıq ideyasının Türkiyə-Rusiya siyasi əlaqələrinə təsiri”** adlanan birinci yarımfəsildə, Türkiyə və Rusiyanın geosiyasi qarşıdurmalarında siyasi nəzəriyyələr,

---

[52] Qəhrəmanov, E. Rusyanın dış politikasında Orta Asya // 3.Anadolu Uluslarası Sosyal Bilimler Kongresi, – Diyarbakır, – 28-29 Aralık, – 2019. Sosyal Bilimler kongresi Kitabı (2 cilt). – s.576-583; Qəhrəmanov, E. Keçilmiş tarixi yoldan asıllıq kontekstində Rusiya-Türkiyə əlaqələrinə ümumi bir baxış// Social Science Development journal İSSN2630-6212, – Volume: 5, issue 22, – december 2020, İstanbul, – s.253-262: [Elektron resurs] / URL: https://ssdjournal.org/DergiTamDetay.aspx?ID=305&Detay=Ozet; Qəhrəmanov, E. Türkiyə-Rusiya münasibətlərində “Məktub diplomatiyası”nın rolu // – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. – 2016, №2. – s.149-155; Qəhrəmanov, E. Türkiyə-Rusiya siyasi münasibətlərində Qafqaz amili// Qafqazşünasların I Beynəlxalq Forumu. – 17-18 aprel, – Bakı, – 2017. I kitab, – s.229-234.

düşüncələr və ideyaların xarici siyasətdə nə dərəcədə əhəmiyyətli olduğu araşdırılmışdır. Bunlardan ən vacibi Türkiyənin Avrasiya siyasətinə yenidən baxmalı və öz maraqları çərçivəsində Avropa ilə münasibətlərində bu amildən istifadə etməlidir. Aparılan uğurlu siyasət nəticəsində, Türkiyənin Avrasiyada güclənməsi, Rusiya və Aİ yanında strateji dəyərini artıracaqdır. ABŞ-ın bölgədəki ən inamlı müttəfiqi Türkiyədir. Avropa isə Türkiyəni avropalı olaraq görmür, digər tərəfdən də Türkiyənin Qafqaz, Orta Asiya və Orta Şərqdəki potensialı səbəbindən tamamilə özündən təcrid etmək də istəmir. Nəticədə Qərb Türkiyənin Avrasiya siyasəti ilə bağlı fəaliyyətini bəyənməyəcəkdir. Sonda isə Rusiya bu siyasətdə nə qədər, əhəmiyyətli bir fiqur olduğunu göstərə bilər. Türkiyənin Avrasiya istiqamətində hərəkət edəcəyi təqdirdə, iki problemin - daxili təhlükəsizlik çərçivəsində PKK-nın istifadə olunması və iqtisadi vəziyyətdə investisiya və sərmayələrin azaldılması yolları ilə vəziyyətin pisləşməsi ehtimalı yaranacaqdır.

**“Türkiyə xarici siyasətində Yeni Osmanlıçılıq geosiyasi nəzəriyyəsi və bu nəzəriyyənin Türkiyə-Rusiya münasibətlərində yeri”** adlanan ikinci yarımfəsildə Türkiyənin xarici siyasətində vacib yerlərdən birini tutan Yeni Osmanlıçılığın tarix prinsipləri və inkişaf qanunauyğunluqları tədqiq edilmişdir. Yeni Osmanlıçılıq siyasəti digər ölkələrlə müqayisədə, Rusiya ilə münasibətlərdə özünü daha çox büruzə verirdi.Təbii ki, bu siyasi düşüncədəki maraqların əhatəsinin genişlənməsi, Rusiyanın maraqları ilə toqquşurdu. Yəni keçmiş Osmanlı torpaqlarında öz nüfuzunu qaytarmaq istəyi Rusiyanın maraqları ilə tamamilə ziddiyyət təşkil edirdi. Hətta Aleksandr Duqin öz çıxışlarının birində qeyd edir ki, “*Türkiyə Yeni Osmanlıçılıq düşüncəsindən əl çəkməzsə nizamsız və xaotik bir vəziyyətlə qarşı-qarşıya qala bilər. Bu düşüncə bir xəyal məhsuludur və ölkəni çıxılmaz vəziyyətə sala bilər*”[53]. Keçmişdə Osmanlının Rusiya imperiyasına düşmən olduğunu xatırlayaraq qeyd etmək lazımdır ki, həmişə Rusiya və Osmanlı imperiyasının ittifaq səylərinə qarşı İngiltərə və Fransa kimi Qərb

[53] Dugin Aleksandrın konferansda çıkışı. Türkiye - Rusya İlişkileri Konferansı 15 Temmuz 2016: [Elektron resurs] / URL: https://www.youtube.com/ watch?v= OPxDWoY6 P BU.

ölkələri davamlı olaraq qarşı gəldi. Bu vəziyyətdə də Osmanlı dövləti ilə qarşılıqlı rəqabət ortaya çıxmış oldu. Tarix göstərir ki, bu iki dövlət nə zaman imperiya məqsədləri üçün hərəkətə keçsə, qarşı-qarşıya gəlməli olurlar. Dissertasiyanın üçüncü fəslində tədqiq edilən problemlər haqqında ayrıca məqalələr çap edilmişdir.[54]

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş və müvafiq elmi ümumiləşdirmələr aparılmışdır.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:


1. Qafqaz regionunda dünya dövlətlərinin geosiyasi və strateji maraqları // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, –2013. №2, – s.126-132.
2. 2008-ci il rus-gürcü münaqişəsinin region dövlətlərinə təsir // – Bakı: Geostrategiya. Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, –2013. №01(13) yanvar-fevral, – s.57-59.
3. Türkiyə-Rusiya münasibətlərində Xəzərin enerji ehtiyatlarının rolu // – Bakı: Tarix və onun problemləri, –2014. №3, – s.145-150.
4. Türkiyə-Rusiya geosiyasi qarşıdurmasının Qafqaz üçün əsas istiqamətləri // Aida İmanquliyevanın 75 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, – Bakı, – 2014,– s.301-304.
5. Türkiyə-Rusiya münasibətlərinə erməni diaspor cəmiyyətlərinin təsiri // – Bakı: Tarix və onun problemləri, – 2015. №4, – s. 285-289.
6. Türkiyə-Rusiya geosiyasi qarşıdurmasının əsas istiqamətləri // Qafqaz Universiteti, Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransı materialları, – Bakı: – 17-18 aprel, – 2015, – №1, – s.1460-1462.
7. Müasir dövrdə Türkiyə-Rusiya münasibətlərində Qara dəniz boğazları məsələsi // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar


[54] Qəhrəmanov, E. Yeni Osmançılıq geosiyasi nəzəriyyəsinin Türkiyə-Rusiya siyasi münasibətlərinə təsiri// – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri.– 2016. №45, – s.143-151; Qəhrəmanov, E. Rusiyanın Yeni Avrasiyaçılıq ideyasının, Türkiyə-Rusiya siyasi əlaqələrinə təsiri// – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Tarix, İnsan və Cəmiyyət, elmi-nəzəri və elmi metodik jurnal. – 2019. 3 (26), – s.55-66.

elmlər seriyası, – 2016. №1 – s. 167-173.
8. Türkiyə-Rusiya münasibətlərində çeçen problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Tarix İnstitutu. Elmi Əsərlər, – 2016. cild 59, – s.118-125.
9. Türkiyə-Rusiya münasibətlərində "Məktub diplomatiyası"nın rolu // – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2016. №2, – s.149-155.
10. Yeni Osmançılıq geosiyasi nəzəriyyəsinin Türkiyə-Rusiya siyasi münasibətlərinə təsiri // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, – 2016. №45 – s. 143-151.
11.Турецко-российские отношения в 1991-2013 годы: некоторые аспекты историографии // – Москва: Современная Научная Мысль. Научный Журнал НИИ Истории, Экономики и Права, – 2017. №5 – с.106-111.
12.Türkiyə-Rusiya siyasi münasibətlərində Qafqaz amili // Qafqazşünasların I Beynəlxalq Forumu, – Bakı: – 17-18 aprel, – 2017. I kitab – s.229-234.
13.Türkiyə-Rusiya münasibətlərində Dağlıq Qarabağ problemi // Bakı Slavyan Universiteti, Azərbaycanşünaslığın aktual problemləri, VIII Beynəlxalq Elmi Konfransın Materialları, – Bakı: – 4-5may, – 2017, – s.468-471.
14.Rusiyanın Orta Asiya siyasəti // – Bakı: Tarix və onun problemləri, –2018. №4, – s.200-204.
15.Rusiyanın Yeni Avrasiyaçılıq ideyasının, Türkiyə-Rusiya siyasi əlaqələrinə təsiri // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix, İnsan və Cəmiyyət, elmi-nəzəri və elmi metodik jurnal, –2019. №3, (26) – s.55-66.
16.Rusyanın dış politikasında Orta Asya // 3.Anadolu Uluslarası Sosyal Bilimler Kongresi, – Diyarbakır: – 28-29 Aralık, – 2019, – Sosyal Bilimler kongresi Kitabı (2.cilt), – s.576-583.
17.Keçilmiş tarixi yoldan asıllıq kontekstində Rusiya-Türkiyə əlaqələrinə ümumi bir baxış // – İstanbul: Social Science Development journal, – 2020.Volume: 5, – issue 22, – s.253-262.
18.Türkiyə-Rusiya münasibətlərindəki dəyişikliklərin İkinci Qarabağ müharibəsindəki əksetmələrinə ümumi bir baxış // – Bakı: Sivilizasiya, Bakı Avrasiya Universiteti elmi-nəzəri jurnal. – cild 10, 2021(27). № 2, – s.96-102.

Dissertasiyanın müdafiəsi 31.05.2022-ci il tarixində saat 12:00-da Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

**Ünvan:** Az-1148, Bakı şəh., Yasamal r/nu, Zahid Xəlilov küç., 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 Aprel 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.04.22

Kağızın formatı: 60*84 16/1

Həcm: 48.460

Tiraj: 100